

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 fevral 2025-ci il №8 (2917) https://mod.gov.az Qiyməti 30 qəpik


## Ordu quruculuğunda gənclərin rolu əvəzsizdir

*Gəncliyin savadlı, geniş dünyagörüşlü, vətənpərvər ruhda formalaşması hər bir dövlət üçün vacibdir. Cəmiyyətin aparıcı təbəqəsi əsasən gənclərdir. Buna görə də inkişaf və inteqrasiya məhz gənclərlə addımlayır. Azərbaycanın inkişafında, onun iqtisadi, siyasi və mədəni həyatında, demokratik dövlət və cəmiyyətin qurulmasında gənclərin rolu danılmazdır. Azərbaycanın tarixinin hər mərhələsində gənclərimiz özünəməxsus rol oynayıblar. Ordu quruculuğunda da gənclərin rolu əvəzsizdir. Onlar Vətən qarşısında borclarını layiqincə yerinə yetirmək üçün orduda həvəslə xidmət edir, hərbi sirlərə mükəmməl yiyələnirlər. Bütün bunlar müstəqil Azərbaycanın sabahına nikbin baxmağa əsas verir.*

Gənclik böyük, tükənməz bir qüvvədir. Gənclər Vətənin işıqlı sabahı, nurlu gələcəyidir. Fiziki və mənəvi cəhətdən sağlam olan, dünyada gedən prosesləri qavrayan, müasir texnologiyalarla işləməyi bacaran, əqidəli, milli-mənəvi dəyərlərə malik gənclər Vətənimizi uğurlu gələcəyə aparan böyük qüvvədir. Gənclərin yüksək bilikli, savadlı, sağlam ruhlu olması üçün lazımi tədbirləri görən dahi şəxsiyyət Heydər Əliyev bu istiqamətdə mühüm qərarlar qəbul edib.

### Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

### *Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik*



Xalqımız dünəni və sabahı üçün Ulu Öndər Heydər Əliyevə borcludur. Ümummilli Lider Heydər Əliyev həmişə xalqına arxalanırdı, onun gəncliyinə böyük ümidlər bəsləyirdi. Dahi şəxsiyyətin gənclər haqqında nitqləri Azərbaycanda gənclər siyasətinin nəzəri əsaslarını müəyyənləşdirib.

"Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir". Bu ifadələrdən xalqının gənclərinə inanan, onları daima fəal görmək istəyən Ulu Öndərin gənclərə olan diqqət və qayğısı aydın görünür.

Ümummilli Lider Heydər Əliyev ölkədə gedən demokratik islahatlara və insan hüquqlarının qorunmasına həmişə diqqət yetirirdi. İctimai-siyasi, mədəni həyatımızın müxtəlif sahələrində sistemli islahatlar aparan böyük dahi şəxsiyyət bütün bu proseslərdə gənclərin roluna həmişə xüsusi fikir verirdi. Müxtəlif qurumlarda, dövlət idarələrində, siyasi və iqtisadi arenalarda gənclərin fəal iştirakını təmin edirdi. Ulu Öndər Heydər Əliyev nitqlərinin birində demişdi: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil,Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur, vətənpərvərlik". Heydər Əliyev respublika rəhbərliyinə gəldiyi ilk dövrlərdən gənclərin himayədarı kimi çıxış edərək sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində misilsiz işlər görmüşdür. Gənclərin milli və vətənpərvər ruhda tərbiyəsinə həmişə önəm verən dahi rəhbərin əsas məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsi, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verilməsini təmin etməsi idi. O, hər zaman Azərbaycan gəncliyini ölkənin taleyi üçün mühüm işlər görməyə çağırırdı.


**(Ardı 2-ci səhifədə)**




## Hərbi qulluqçularımız “Qış təlimi-2025”də yüksək peşəkarlıq nümayiş etdirirlər



Türkiyə Respublikasının Qars şəhərində keçirilən beynəlxalq "Qış təlimi-2025"də iştirak edən hərbi qulluqçularımız yüksək peşəkarlıq nümayiş etdirirlər.

Müxtəlif ölkələrdən 12 mindən çox hərbi qulluqçunun iştirak etdiyi təlimdə əməliyyatlar zamanı bölmələrlə qarşılıqlı əlaqənin təmin edilməsi, döyüş vərdişlərinin yoxlanılması, atəşin idarə olunması, həmçinin axtarış-xilasetmə tədbirləri və döyüş təminatı üzrə fəaliyyətlər həyata keçirilir.


**(Ardı 7-ci səhifədə)**




Gənclər Azərbaycanın vətəndaşlıq əsgərləridirlər


**4-cü səhifədə**




Vətənpərvər oğul, peşəkar zabit


**5-ci səhifədə**




Azərbaycan Ordusunun zabiti olmaq fəxrdir


**5-ci səhifədə**




Qafqazda hərbi topoqrafiya üzrə general-mayor rütbəsinə layiq görülmüş yeganə şəxsiyyət - İbrahim ağa Vəkilov


**6-cı səhifədə**

# Müdafiə naziri Bəhreyn Müdafiə Qüvvələrinin Baş komandanı ilə görüşüb



Yanvarın 30-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan Bəhreyn Krallığının Müdafiə Qüvvələrinin Baş komandanı feldmarşal Şeyx Xəlifə bin Əhməd əl-Xəlifə ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, qonağı salamlayan general-polkovnik Zakir Həsənov onu ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Müdafiə naziri Bəhreyn Krallığı tərəfindən göstərilən humanitar yardıma, eləcə də Azərbaycan Ordusunun şanlı Qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi dövründə beynəlxalq təşkilatlarda dəstəyə görə minnətdarlıq ifadə edib.

Feldmarşal Şeyx Xəlifə bin Əhməd əl-Xəlifə səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirib. İkitərəfli əməkdaşlığın inkişaf etdirilməsində qarşılıqlı səfərlərin vacibliyini xüsusi vurğulayıb.



Görüşdə hərbi, hərbi təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və daha da genişləndirilməsi, eləcə də regional təhlükəsizlik məsələləri barədə ətraflı fikir mübadiləsi aparılıb.

# Ordu quruculuğunda gənclərin rolu əvəzsizdir

(Əvvəli 1-ci səhifədə)

Ulu Öndərin prezidentliyi dövründə gənclər onun diqqət və qayğısını daim öz üzərlərində hiss etmişlər. Məhz həmin dövrə təsadüf edir ki, 1997-ci ildən Ulu Öndərin Sərəncamı ilə 2 fevral Azərbaycanda Gənclər Günü kimi qeyd olunmağa başladı. Dövlətin gənclər siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə idarəetmə bacarığı ilə seçilən intellektual, dünyagörüşlü yeni nəsil yetişmişdir. Bugünkü Azərbaycan gəncliyi Umummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərini yüksək qiymətləndirir, onun bizə bəxş etdiyi Azərbaycanın müstəqilliyini, elm-təhsilin inkişafını, ölkəmizin siyasi, iqtisadi yüksəlişini, gənclərə olan diqqət və qayğısını dərin ehtiram hissi ilə xatırlayır.

Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan siyasi kurs Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən və müasir dövrün tələblərinə cavab verən gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynamışdır. Bu siyasət çərçivəsində uğurla icra olunan bir sıra tədbirləri sadalamaqla biz gənclərimizin dövlətçiliyə bağlı, intellektual, yüksək dünyagörüşlü bir qüvvə kimi formalaşmasının şahidi oluruq.

2003-cü ildən sonrakı dövrdə Prezident İlham Əliyev gənclər siyasətinin inkişaf istiqamətini mövcud ənənələr əsasında daha da təkmilləşdirdi. Azərbaycan gəncliyi ilə bağlı və zamanın çağırışları ilə ayaqlaşan Dövlət proqramları qəbul edildi, 2007-ci il "Gənclər İli" elan olundu, 2011-ci ildə Gənclər Fondu yaradıldı, 2013-cü ildə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı" təsis olundu, Azərbaycan gənclərinin İnkişaf Strategiyası təsdiqləndi. Gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Müharibədə əsas missiyanı məhz Ali Baş Komandan İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər.

Bu gün gənclərimizin böyük



bir qismi ordu sıralarında Vətən qarşısındakı müqəddəs borcunu yerinə yetirməkdədir. Onlar təlim və məşğələlərdə döyüş hazırlığını artırır, mənəvi-psixoloji cəhətdən daha da möhkəmlənir, bir sözlə, torpaqlarımızın müdafiəsi naminə səylərini əsirgəmirlər.

Gənclərimizin dövlətimizin başçısının Fərmanı ilə hərbi xidmətə böyük ruh yüksəkliyi ilə getmələri də onlarda Vətən sevgisinin böyüklüyünün təsdiqidir. Vətən müharibəsində, ondan əvvəl və sonra olan döyüş əməliyyatlarında Azərbaycan əsgərinin mübarizliyi, cəsarəti, igidliyi onların döyüş meydanında son damla qanına kimi döyüşməsi bir daha sübut etdi ki, gənclərimizin vətənpərvərlik hissləri yüksəkdir.

Azərbaycan gəncləri üçün ən həlledici sınaqlardan biri də 2020-ci il sentyabrın 27-dən başlayan və noyabrın 10-dək davam edən Vətən müharibəsi oldu. Ordu sıralarında Vətən torpaqlarının azadlığı uğrunda döyüşən qəhrəman gənclərimiz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti sayəsində əldə olunan Şanlı Zəfərlə Azərbaycanın ərazi bütövlüyü bərpa edildi, xalq otuz ilə yaxın həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu.

Hər bir dövlət onda güclü olur ki, onun qüdrətli iqtisadiyyatı və güclü ordusu olsun. Azərbaycanın güclü orduya malik olması 44 günlük Vətən müharibəsində bir daha öz təsdiqini tapdı. Ali Baş Komandan İlham Əliyevin əks-hücum əmri ilə gənclərimiz böyük ruh yüksəkliyi ilə silaha sarılaraq torpaqlarımızı işğaldan azad etdi, üçrəngli bayrağımızı azad olunmuş torpaqlarımızda dalğalandırdılar.

Torpaqlarımızın Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsində bütün nəsillərin nümayəndələri uğurlu fəaliyyət göstərib, ancaq döyüşdə iştirak edənlərin mütləq əksəriyyəti müstəqillik dövründə böyüyüb boya-başa çatmış gənclərdir. Onlar vətənpərvərlik ruhunda böyüdülər, fədakarlıq, qəhrəmanlıq göstərdilər və tarixi ədalət bərpa olundu. Gənclər mənfur düşmənin saxta mifini puç etdilər. Belə vətənpərvər, igid gəncləri olan Azərbaycan heç vaxt yenilməyəcək, daim öz şan-şöhrətini və qüdrətini qoruyub saxlayacaqdır. Birliyimiz 44 günlük Vətən müharibəsində dəmir yumruq kimi dünyaya səs saldı.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə gəncləri daha güclü aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə böyük işlər görülür. Prezident İlham Əliyev gənclərə olan münasibətini belə ifadə etmişdir: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, güclü Azərbaycan hamımızın qürur mənbəyidir. Ölkəmizin ev sahibliyi etdiyi beynəlxalq səviyyəli tədbirlər, gənclərimizin istər ölkə daxilində, istərsə də xaricdə keçirilən forumlarda fəal iştirakı bir daha təsdiq edir ki, vətənpərvər, ölkəsini, xalqını sevən hər bir azərbaycanlı dövlətimizin daha da qüdrətlənməsinə, beynəlxalq nüfuzunun artmasına öz töhfəsini verməyə səy göstərir. Birliyimiz, həmrəyliyimiz məqsədimizə yüksək səviyyədə nail olmağa stimul verir.

Bu gün qətiyyətlə deyə bilərik ki, ölkədə gənclər Prezident İlham Əliyevin uğurla apardığı daxili və xarici siyasət kursunu alqışlayır, bu siyasətin icrasında daim onun yanındadırlar. Beləliklə, bu gün hər bir Azərbaycan gənci Ümummilli Lider Heydər Əliyevin ideyalarını öz fəaliyyətində daim rəhbər tutmalı, Azərbaycan gəncliyinin lideri olan möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyinin əbədi yaşaması üçün yumruğunu bir hədəfə vurmalıdır. Əlbəttə ki, bu günün gəncliyi vətənpərvər, sağlam ruhlu, özünə inamlı, mübariz gənclikdir. Əminliklə deyə bilərik ki, Azərbaycan gəncliyi dövlət başçısının iqtisadi-siyasi, mədəni arenadakı fəaliyyətini birmənalı dəstəkləyir.

Artıq Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənc nəsil formalaşıb. Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi həyatında rolu günü-gündən artır. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb. Gənclər də öz növbəsində dövlət qayğısını daim hiss edərək nailiyyətləri ilə onlara göstərilən etimadı layiqincə doğrultmağa çalışırlar. Bu yüksək münasibətə cavab olaraq ölkəmizin parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışırlar.

Tam inamla demək olar ki, ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması üçün həyata keçirilən bütün zəruri tədbirlər Azərbaycan gəncliyini daha işıqlı sabahlara aparacaqdır.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# Qərbi Azərbaycan İcması "Human Rights Watch" təşkilatının Azərbaycana qarşı ayrı-seçkiliyini pisləyib

Özünü insan hüquqlarının müdafiəçisi adlandıran "Human Rights Watch" təşkilatı dünyada insan hüquqlarının vəziyyətinə dair illik hesabat dərc edib. Hesabatın Azərbaycana dair hissəsində çoxsaylı böhtanlarla yanaşı ölkəmizdən köçüb getmiş ermənilərin qayıdışına şərait yaradılması məsələsi qaldırılır. Lakin Ermənistana dair hissədə oradan qovulmuş azərbaycanlıların qayıdışı barədə bir kəlmə də olsun bəhs edilmir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda, həmçinin deyilir: "Hesab edirik ki, bu, "Human Rights Watch" təşkilatı tərəfindən Azərbaycan xalqına etnik və dini əsasda ayrı-seçkilikdir. İrqi ayrı-seçkilik hər bir halda qəbuledilməzdir. Bu ayrı-seçkiliyi özünü insan hüquqlarının müdafiəçisi kimi qələmə verən təşkilatların həyata keçirməsi isə insan hüquqlarına ikiqat ağır zərbə vurur. Əlavəxüsus, xatırladaq ki, bu hesabatın dərc edilməsindən az əvvəl, keçmiş prezident Levon Ter-Petrosyanın Ermənistanın Qərbi azərbaycanlılara qarşı etnik təmizləməsinin dövlət siyasəti olduğunu təsdiq edən çıxışı yayılmış və biz bu barədə "Human Rights Watch"a xüsusi müraciət ünvanlamışdıq.

Biz "Human Rights Watch" təşkilatı və onun arxasında duran qüvvələrdən insan hüquqlarından siyasi alət kimi istifadə etməyi, azərbaycanlılara qarşı irqi ayrı-seçkiliyi və Ermənistanın etnik təmizləmə siyasətinə dəstəyini dayandırmağı tələb edirik".

# Biz gənclər əldə etdiyimiz bütün uğurlara görə Ali Baş Komandana borcluyuq

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

***Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təminatçısı məhz Azərbaycan gəncliyidir***

*Respublikamızda gənclər siyasətinin müəyyənləşdirilməsi və uğurla həyata keçirilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz dahi şəxsiyyətin diqqət və qayğısı sayəsində ölkəmizin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün hər cür şərait yaradılıb və bu sahədə mühüm nəticələrə nail olunub.*

1970-1980-ci illərdə respublikamıza rəhbərlik edərkən Ümummilli Lider Heydər Əliyev ölkəmizdə sağlam düşüncəli yeni nəslin formalaşması sahəsində uzaqgörənliklə elə işlər görmüşdür ki, onların bəhrələrindən müstəqil respublikamız indi də faydalanmaqdadır. 1993-cü ildə Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizdə yaranan ictimai-siyasi sabitlik və əmin-amanlıq, demokratik mühit, siyasi və iqtisadi islahatlar ölkə həyatının bütün sahələrində olduğu kimi, gənclərlə iş sahəsində də ciddi dönüşün yaranmasına, dövlətin gənclər siyasətinin həyata keçirilməsi istiqamətində bir çox əhəmiyyətli işlərin görülməsinə səbəb oldu.

Ulu Öndər müstəqillik şəraitində gənclərin roluna, fəal vətəndaşlıq mövqeyinin formalaşmasına müstəsna əhəmiyyət verirdi. O, müasir Azərbaycan gəncliyinin müxtəlif qruplarının, dəstələrinin fəaliyyətinin təşkilati baxımdan sıx əlaqələndirilməsinə ciddi əhəmiyyət verərək, 1994-cü ildə Gənclər və İdman Nazirliyini yaratdı, onun faydalı fəaliyyət göstərməsi üçün əlverişli mühitin qərarlaşması istiqamətində bir çox işlər gördü. Əslində, Azərbaycanda gənclər siyasəti məhz həmin ildən icra edilməyə başlanıldı. Məlum dövrün mövcud çətinliklərinə baxmayaraq, gənclərin səmərəli fəaliyyətinin təmin olunması və inkişafı üçün yeni imkanlar açıldı, münbit şərait yaradıldı.

Gənclər də Vətənimizin ən çətin anlarında Ulu Öndərin çağırışı ilə meydanlara axışdı, başı bəlalar çəkmiş ölkəmizi xilas etdi. "Hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır" deyən Ulu Öndər Heydər Əliyevin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, hər il fevralın 2-si Azərbaycanda Gənclər Günü kimi qeyd olunur.

Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin böyük rolu vardır. Onlar müxtəlif sahələrdə uğurla fəaliyyət göstərir, ölkəmizin inkişafına böyük töhfələr verirlər. Ulu Öndər Heydər Əliyevin gəncliyə, Azərbaycanın böyük gələcəyinə inamı bu cümlələrdə öz ifadəsini tapmışdır: "Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təminatçısı məhz Azərbaycan gəncliyidir".

Heydər Əliyev qeyd edirdi ki, "...gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün o, ilk növbədə, yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir".

Ümummilli Liderin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də öz fəaliyyətində gənclərlə iş məsələsinə çox həssaslıqla yanaşır, ölkəmizin bu günü və gələcəyinin əsas sosial qüvvəsi olan müasir gəncliyin vətənpərvər ruhda yetişməsi üçün lazım olan hər şeyi edir. Məlum olduğu kimi, dövlət başçısının 19 dekabr 2011-ci il tarixli Fərmanı ilə gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönələn fəaliyyətlərin stimullaşması məqsədilə respublikamızda Gənclər Fondu yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu günün gəncliyinə ünvanlanmış "Gənclərə müraciət edirəm! Mən sizinləyəm, mən sizi həmişə dəstəkləmişəm. Bu gün də dəstəkləyirəm və gələcəkdə də dəstəkləyəcəyəm" sözləri, əslində, Azərbaycan gəncliyinin qarşısında açılan aydın üfüqlərdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gənclərimizin hərtərəfli inkişafı, onların intellektual səviyyəsinin yüksəldilməsi üçün bütün imkanlardan istifadə edir. Dövlətimizin başçısı gənclər siyasətini uğurla davam etdirərək, 2007-ci ili ölkəmizdə "Gənclər İli" elan etdi. Dövlət tərəfindən gənclərə göstərilən yüksək diqqət və qayğı ildən-ilə artırılır. Yüksək intellekti və bacarığı ilə seçilən gənclərin dövlət idarəetmə işlərinə cəlb olunması deyilənləri bir daha təsdiqləyir. Gənclər siyasətinin həyata keçirilməsində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi gənclərlə işin səmərəsini artırmaqla yanaşı, onların informasiya cəmiyyətinə uyğunlaşmasına da zəmin yaradır.

Azərbaycanda gənclərin hərtərəfli inkişafı istiqamətində genişmiqyaslı işlər aparılır. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın böyük əhəmiyyəti olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 26 yanvar 2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" dövlət gənclər siyasətinin yeni mərhələyə qədəm qoyduğunu bir daha göstərdi. Strategiyanın məqsədi 2015-2025-ci illəri əhatə edən müddətdə Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, bundan ölkəmizin mənafeyi naminə istifadə etmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdır.

Ötən dövr ərzində adı çəkilən strategiya və proqram gənclər siyasətinin səmərəli həyata keçirilməsində, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaradılmasında əhəmiyyətli rol oynayıb. Bu, eyni zamanda, təhsil sisteminin gücləndirilməsinə, ölkədə elmi potensialın artırılmasına əsaslı şərait yaradıb.

Məhz bunun nəticəsidir ki, hazırda Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il noyabrın 26-da Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə söylədiyi nitqində hazırda gənclərin potensialına xüsusi önəm verildiyini, onların bilik və bacarıqlarından səmərəli istifadə edildiyini vurğulayıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə davamlı və dayanıqlı islahatlar həyata keçirilir. Bu islahatlar, eyni zamanda, gənclərin bilik və bacarıqlarının inkişaf etdirilməsi, Azərbaycanın gələcəyi naminə onların layiqli işlə təmin olunmaları, həmçinin respublikamızın ictimai-siyasi, sosial-iqtisadi və digər sahələrində fəal rol almalarına mühüm təsir göstərir.

Biz əldə etdiyimiz bu uğurlarımıza görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə borcluyuq. Qüdrətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə tarixi zəfər qazanmışdır.

Prezident cənab İlham Əliyev söyləmişdi: "Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq".

Ölkəmizdə Gənclər Günü 28 ildir ki, qeyd olunur. Biz tarixi hadisələrlə zəngin bir dövr yaşayırıq. Bu gün Azərbaycan öz tarixində heç vaxt olmadığı qədər müstəqil və güclü dövlətdir. Hər bir Azərbaycan gənci Ali Baş Komandanın əsgəridir.

Bir ölkənin gələcəyini bilmək üçün onun gəncliyinə nəzər salmaq lazımdır. Çünki gənclər mənsub olduğu xalqı təmsil edirlər. Bu gün Azərbaycan gəncliyi xoşbəxtdir ki, Azərbaycanın lideri, Prezident İlham Əliyev gənclərimizə daha güclü, daha zəngin bir ölkə bəxş edib.

Bu gün Azərbaycanın gələcəyi olaraq gənclərin üzərinə çox böyük vəzifələr düşür. Biz gənclər də öz növbəmizdə göstərilən etimadı doğrultmalı və yeni ideyalarla Azərbaycanın daha da inkişafı üçün birlikdə çalışmalıyıq. Prezident İlham Əliyevin gərgin əməyi sayəsində 30 il ərzində məhv edilmiş Qarabağın Ermənistan silahlı birləşmələrinin işğalından azad edildikdən sonra yenidən dirçəldilməsi kimi şanlı missiya davam edir. Ali Baş Komandan İlham Əliyevin ölkəmizin rifahı, xoşbəxt gələcəyi naminə gördüyü işlər milli inkişafa xidmət edir. Dövlətimizin başçısının Sərəncamı ilə 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi dövlətimizin hüquqi əsaslarının və müstəqilliyinin daha da gücləndirilməsinə yönəlmiş strateji bir addımdır. Milli dövlətçilik tariximiz üçün müstəsna əhəmiyyətə malik olan bu sənəd ölkə gəncləri tərəfindən böyük rəğbətlə qarşılandı. Bu sərəncam dövlətçiliyimizin əsaslarını daha da möhkəmləndirməklə, hüquq və qanunun aliliyi prinsipinə əsaslanan islahatların davamlı olmasına yol açmaqla bərabər, gələcək nəsillər üçün də möhkəm siyasi irs yaratmış olacaq. Ali Baş Komandan İlham Əliyevin sayəsində "Konstitusiya və Suverenlik İli" kimi tarixə düşən 2025-ci il də qürur dolu şərəfli səhifələrdən biri olacaq.

**Günel MƏLİKLİ**
**Milli Müdafiə Universitetinin professoru**

## Mariya Zaxarova: ATƏT-in Minsk qrupu fəaliyyətini dayandırıb

ATƏT-in Minsk qrupu 2022-ci ilin fevralında fəaliyyətini dayandırıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova keçirdiyi brifinqdə bildirib.

Diplomat qeyd edib ki, ATƏT-in Minsk qrupu özünün fəaliyyət məqsədini itirib. Onun sözlərinə görə, vaxtı çatmış bu fakt Azərbaycan ilə Ermənistan arasında çoxdan gözlənilən münasibətlərin normallaşdırılmasına da kömək etməlidir.

## M.Zaxarova erməni jurnalistin Rusiya-Azərbaycan münasibətləri barədə sualına sərt cavab verib

Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova erməni jurnalistin Rusiya-Azərbaycan münasibətləri barədə sualına emosional reaksiya verib.

AZƏRTAC xəbər verir ki, erməni jurnalistin sualını cavablandıran rusiyalı diplomat deyib: "Siz, doğrudanmı başa düşmürsünüz ki, bizim ikitərəfli gündəliyimiz barədə sual erməni mediası nümayəndəsinin dilindən necə gülməli səslənir?"

M.Zaxarovanın sözlərinə görə, bu sual Rusiya-Azərbaycan münasibətlərinin ikitərəfli əsaslarda inkişaf etməsi və Bakı ilə İrəvan arasında münaqişənin həlli məsələsinə aidiyyəti olmaması kontekstində "absurd" səslənir.

RF XİN-in rəsmi nümayəndəsi vurğulayıb ki, Rusiya-Azərbaycan münasibətləri ilə bağlı məsələlər müstəsna olaraq iki dövlət arasında həll olunur və onları üçüncü tərəfin maraqları ilə əlaqələndirmək cəhdləri yersiz görünür. O, Ermənistan media nümayəndələrinin Rusiya-Ermənistan gündəminin əsas aspektlərinə məhəl qoymadan sırf üçüncü ölkələrin ikitərəfli münasibətləri ilə bağlı suallar verməsindən təəccübləndiyini bildirib.

# Gənclər Azərbaycanın vətəndaşlıq əsgərləridirlər

*Zülmətin bağrını yardın, gecəni dan elədin! Azərbaycan əsgərinə yazdığım bir şeirin bir misrası beləydi. Xocalıda da, Xankəndidə də bu şeirin işığında əsgərlərimizlə səmimi söhbətləşmişdik. Döyüşlərdən danışmışdıq, şəhidlikdən, şəhidlərdən danışmışdıq, Zəfərdən danışmışdıq. Cəbrayıldan olan bir döyüşçünün döyüşçü yoldaşlarına istəyini də xatırlamışdıq: Qələbədən sonra bizim kəndimizə gedərik, şəhidlərimizi Soltanlıda da anarıq. Mən şəhid olsam, kəndimizə gedin. Onda ruhum sıranızda olacaq. Tərxis ediləndən sonra bu döyüşçülər Soltanlıya gediblər. Qalib əsgər kimi. Zülmətin bağrını yarıb gecəni dan edənlər şəhid döyüşçünün istəyini sədaqətlə yerinə yetiriblər. O zülmət işğalçılığıydı, birdəfəlik əridildi, Azərbaycan əsgərinin Vətənə sevgisi əritdi, sərkərdəlik məharəti əritdi, xalqla ordunun birliyi əritdi, Azərbaycan gəncliyinin Vətənə sədaqəti əritdi...*

"N" hərbi hissəsində Gənclər günündən danışırıq...

Leytenant Orxan Hüseynquliyev Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunmasında gənclərin mütəşəkkilliyini, dönməzliyini, Vətənə sevgisini, bu sevgini milli-azadlıq hərəkatının mübarizə bayrağına çevrildiyini, imperiyanın qoşunlarına qarşı mərdanəliklə necə dayandığını, şəhidlikdən keçən azadlığın necə qazanıldığını xatırladır. Əsgərlərin baxışlarında hamımıza tanış qürur görünür. Onlardan 15 yaş böyük olan qürurun bu sədaqətlə yaşadılması o qürurun müqəddəsliyinə görədi, o müqəddəslik Vətənin müqəddəsliyidi.



1990-cı ilin 20 yanvarında gənclər imperiyanın qoşunlarının qarşısında qol-qola tutub dayanmışdı. Bu əmri verənlər görmədilər, əmri icra edənlər bu qətiyyətdən vahimələnmişdilər. Bu vahimə onların varlığını titrətmişdi. Duymuşdular ki, imperiya Azərbaycanda məğlub olma ərəfəsindədir. İmperiyanı Azərbaycanda milli-azadlıq hərəkatı çökdürdü, Azərbaycan gəncləri, Azərbaycan gəncliyi çökdürdü.

Əsgər Rəşad İsazadə deyir ki, Azərbaycanda gənclər siyasəti haqqında qəbul imtahanlarına hazırlaşanda oxumuşdum. Bu siyasətin böyük tarixi şəxsiyyət Heydər Əliyevlə başladığını, genişləndiyini, dövlət siyasətinin tərkib hissələrindən biri olduğunu da oxumuşdum. Ulu Öndərin dediyi bir kəlam indi də yaddaşımdadır: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir".

Ulu Öndər Heydər Əliyev gəncləri cəmiyyətin inkişafında böyük qüvvə kimi dəyərləndirirdi, gənclərə inanırdı, gənclərə güvənirdi. Gənclər Vətənin vətəndaşlıq əsgəri idi, bu inamın, bu güvəncin əsgəri idi. 1993-cü ilin 22 sentyabrında gənclərin nümayəndələri ilə görüşəndə onlara müraciətində bildirmişdi: "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir. Siz, Azərbaycan xalqının gənc nəsli, bu gün də müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında böyük rol oynayırsınız. Eyni zamanda, müstəqillik yoluna düşmüş Azərbaycan dövlətinin gələcəyinin, xalqımızın daha firavan yaşamasının təmələni qoymaqda iştirak edirsiniz. Buna görə də sizə ümid bəsləyirik".

Bu ümid gerçəkləşdi, Azərbaycanda milli qarşıdurma təhlükəsi sovuşdu, separatçılıq ləğv olundu, dövlət idarəçiliyi tənzimləndi. Bunlar böyük tarixi şəxsiyyət Heydər Əliyevin inamına sədaqətin nəticəsi idi...

Əsgər Elnur Əliyev əsgər yoldaşının sözünə qüvvət kimi orta məktəbdə oxuyanda tarix müəllimlərinin dediklərini xatırladır: Bu siyasət Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra dövlətin siyasi kursu oldu. 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyi, 1995-ci ildə Azərbaycan Respublikası Gənclər Təşkilatlarının Milli Şurası yaradıldı. Yəni, təşkilatlanma bütövləşdi. Fəaliyyət tənzimləndi, dövlətin daxili siyasətinə müvafiq istiqamətləndirildi.

Əsgər Teymur Alpaşayev:

- Deyiblər - eşitmişik, öyrədiblər - öyrənmişik, biz də bilirik ki, gənclər cəmiyyətin inkişafında böyük qüvvədir, bu qüvvə aparıcı qüvvədir. Bütün sahələr üzrə gənclərin fəaliyyətini dövlət idarəçiliyinə də cəlb etmək, gənclərin ölkənin inkişafında iştirakını, məsuliyyətini artırmaq üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsini tövsiyə etdi və 1996-cı il fevralın 2-də gənclərin I Forumu keçirildi. Bu qurultay gənclərin siyasi fəallığını yüksəltdi.

Əsgər yoldaşının fikrini əsgər Abuzər Məmmədov tamamlayır:

- Azərbaycan gənclərinin birinci forumunun ildönümü ilə əlaqədar dövlət başçısı 1997-ci il fevralın 1-də respublika gənclərinin bir qrupunu qəbul etdi. Bu qəbul dövlətin gənclərinə etimadı, davamı kimi tarixləşdi. Gənclər bu qəbulun mahiyyətini təhsildə də, əməkdə də, ictimai həyatda da, Vətənin müdafiəsində də doğrultmağı vətəndaşlıq borcu bilmişdi. Dövlət başçımız fevralın 2-nin Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında Fərman imzaladı...

Əsgərlərin Azərbaycanda gənclər siyasətinə bələdliyini, bu istiqamətdə məlumatlarını, bilgilərini zabitlər də bəyənirlər, biz də bəyənirik. Hərbi xidmətə gəlməzdən əvvəl qəbul imtahanlarına hazırlaşmış əsgər Rəşad İsazadə deyir:

- İctimai-siyasi dərsdə qrup rəhbərimiz demişdi ki, 1999-cu il martın 2-də Azərbaycan gənclərinin II Forumundakı çıxışında Ulu Öndər Heydər Əliyev respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətini gənclərin problemlərinin həllinə yönəltməklə bağlı tövsiyələr vermişdi. Dahi rəhbər Heydər Əliyev forumda XXI əsri gənclərin əsri adlandırmışdı. Bu ideyanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev sədaqətlə davam etdirdi. Gənclər əsrində 2007-ci ili "Gənclər ili" elan etdi, bu haqda Sərəncam imzaladı...

2007-ci ilin "Gənclər ili" elan edilməsi dövlət başçısının Azərbaycan gəncliyinin savadına, bacarığına, gələcəyinə böyük inamla yanaşmasının əyani təzahürüdür. Bununla bağlı Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamda deyilirdi: "...Hər bir insanın gücü, əlbəttə ki, onun biliyindən asılıdır. Ona görə mən əminəm, gənclərimiz bunu yaxşı başa düşürlər ki, yaxşı bilik almaq, yaxşı savad almaq və istənilən sahədə peşəkar olmaq hər bir gəncin, hər bir insanın həyatda yaxşı yer tutmasına gətirib çıxaracaqdır".

Əsgərlər də bilirlər ki, Azərbaycan Ermənistanın işğalçılıq müharibəsinə torpaqlarının işğaldan azad olunması üçün siyasi mübarizə apara-apara ordusunun döyüş hazırlığını da yüksəldirdi. Ermənistanın müxtəlif miqyaslı hərbi xarakterli təxribatlarının, irimiqyaslı hücumlarının qarşısını qətiyyətlə alırdı. Sülh danışıqlarından yayınan, regionda status-kvonu saxlamağa çalışan Ermənistan 2020-ci il sentyabrın 27-də də müxtəlif istiqamətlərdən hücuma keçib. Bu hücumun da qarşısı alınıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin döyüş əmri ilə əks-hücum əməliyyatı başlayıb.

İkinci Qarabağ müharibəsi başlayanda minlərlə tələbə, müxtəlif sahələrdə işləyən gənclər döyüşlərə getmək üçün rayonların Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edirdi. Səfərbərliklə göndərilənlər də gənclər idi, ordumuzun şəxsi heyətinin əksəriyyəti də gənclər idi, şəhid olanlar da gənclər idi. Azərbaycanın bu gününün də, sabahlarının da məsuliyyətinin cəfakeşi gənclər olub, indi də gənclərdir, həmişə də gənclər olacaqlar. Azərbaycan gəncləri hər ili Azərbaycan naminə gənclər ili kimi, hər günü gənclər günü kimi yaşayırlar...

- Azərbaycan Ordusu xalqla ordunun birliyiylə, sərkərdənin müdrikliyiylə, azərbaycançılıq qüdrətiylə döyüşürdü. Ordu hissələrimiz müharibənin gedişində meşə cığırlarını, nazik yolları ordunun, döyüş maşınlarının keçə biləcəyi hərbi yola çevirməyi bacarmışdı. Bu yol döyüşçülərimizi zəfərə aparırdı. Şuşaya hücum bu yolla həyata keçirildi. Şuşa işğaldan azad edildi. Bu qələbə İkinci Qarabağ müharibəsinin sonu oldu, - deyirəm. Leytenant Orxan Hüseynquliyev fikrimin davamı kimi bir məqamı xatırladır: Azərbaycan Respublikasının Prezidenti çıxışlarının birində böyük qürurla, inamla, sevgilərlə deyib ki, Azərbaycan xalqı Vətən müharibəsində iştirak etmiş hər bir igid gəncinə minnətdardır. Vətən uğrunda, torpaq uğrunda döyüşlərin ön sıralarında gedənlərin əksəriyyəti gənclər idi.

Zabit Fərid İsgəndərovun ordu gənclərinin Xankəndi forumunda çıxışında dediyi fikirləri xatırladıram: Ordu gəncləri kimi, pilotlar da həmişə Vətənə böyük sədaqətlə xidmət edəcəklər. Fikrim əsgərlərin düşüncələrini bugünkü söhbətin cazibəsindən ayırıb sabahlara yönəldir: Biz İkinci Qarabağ müharibəsində tarixi Zəfər qazanmış əsgərlərin davamçıları kimi Vətənə həmişə sədaqətlə xidmət edirik. Hərbi xidmətə bizdən sonra gələnlər də belə xidmət edəcəklər. Azərbaycanın ərazi bütövlüyünü xidmətdə olan gənclər də qoruyur, tərxis olunmuş əsgərlər də bu niyyətin əsgərləridir. Gənclər Azərbaycanın vətəndaşlıq əsgərləridirlər...

Hərbi xidmət milli-mənəvi dəyərlər əsasında formalaşan azərbaycanlı gənclərin ilə, dövlətə, dövlətçiliyə sədaqəti ilə püxtələşdirir. Asudə vaxtda bu söhbətin Azərbaycan gəncliyinin sabahlarına, Azərbaycanın qüdrətinə inam kimi tarixləşdiyinə zabitlər də əmin oldu, biz də əmin olduq...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## Ombudsman "Human Rights Watch"u qərəzsiz yanaşma sərgiləməyə çağırıb

*Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) Səbinə Əliyeva "Human Rights Watch" (HRW) təşkilatının icraçı direktoru Tirana Hassana açıq məktub ünvanlayıb.*

Ombudsman Aparatının mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məktubda sözügedən təşkilatın dünya ölkələri ilə bağlı 2024-cü il hesabatının Azərbaycana dair hissəsində ölkəmizə qarşı qərəzli və birtərəfli yanaşmanın nümayiş etdirildiyi bildirilib.

Eyni zamanda, HRW-nun öz hesabatını hazırlayarkən geniş ictimaiyyətə açıq olan, ombudsmanın insan hüquq və azadlıqlarının müdafiəsi, o cümlədən işgəncələrin qarşısının alınması sahəsində fəaliyyətinin də əhatəli şəkildə yer aldığı illik və paralel hesabatlarına istinad etmək əvəzinə, şübhəli və qərəzli mənbələrə əsaslandığı göstərilib. Habelə təşkilatın hesabatında qeyd edilən bir sıra şəxslərlə Ombudsmanın Milli Preventiv Qrupunun üzvlərinin görüşdüyü, onlara qarşı heç bir işgəncə və ya pis rəftar faktının aşkar edilmədiyi bildirilib.

Məktubda Azərbaycanın ev sahibliyi etdiyi, iqlim dəyişmələrinin qarşısının alınması sahəsində effektiv müzakirələrin həyata keçirildiyi COP29 çərçivəsində iqlim dəyişmələri nəticəsində baş vermiş fəsadların aradan qaldırılması məqsədilə mühüm qərarların qəbul edilməsinə baxmayaraq, HRW-nun öz hesabatında aktual problemlər üzrə əldə olunan bu uğurları nəzərə almadığı diqqətə çatdırılıb.

Eyni zamanda, məktubda Azərbaycanın uzun illər Ermənistanın işğalçılıq siyasətinə məruz qalması, nəticədə bir milyondan çox soydaşlarımızın fundamental hüquq və azadlıqlarının kobud şəkildə pozulması, işğala son qoyulduqdan sonra keçmiş məcburi köçkünlərin evlərinə təhlükəsiz və ləyaqətlə qayıdışının bərpası istiqamətində görülən işlər, insanların həyat və sağlamlığına mühüm təhdid yaradan mina problemi, habelə yüz minlərlə azərbaycanlının Ermənistandan zorla qovularaq qaçqın düşməsi faktlarının hesabatda nəzərə alınmadığı və nəticədə Azərbaycana qarşı ikili standartların nümayiş etdirildiyi bildirilib.

Ombudsman "Human Rights Watch" təşkilatını öz hesabatlarını hazırlayarkən qərəzsiz yanaşma sərgiləməyə, ədalətli olmağa və təsdiqlənmiş faktlara əsaslanmağa çağırıb.

Medallı igidlərimiz

# Vətənpərvər oğul, peşəkar zabit

Birinci Qarabağ müharibəsində Ermənistanla sərhəddə yerləşən Tovuz rayonunun əli silah tutan bütün oğulları yerli özünümüdafiə dəstələrində birləşərək, erməni yaraqlılarına qarşı mərdliklə döyüşüblər. İllərlə Tovuz rayonunun sərhəd ərazisində yerləşən kəndləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşə məruz qalıb, kənd camaatının həyatı daima təhlükədə olub, təsərrüfatlarına külli miqdarda ziyan vurulub. Tovuz düşmən tərəfindən atəşkəsin daha çox pozulduğu rayonlarımızdan biri idi.

Seyfəddin də döyüş bölgəsində ordu bölmələrinin, hərbi formalı insanların, hərbi texnikaların, hərbi maşınların olduğu müharibə şəraitində böyüyüb boya-başa çatıb. Atası Fəxrəddin Həsənov da Birinci Qarabağ müharibəsinin ağır illərində baş leytenant hərbi rütbəsində döyüşlərdə iştirak edib. Bu mühitin təsiri də onu hərbin yollarına gətirib çıxarmışdı... Tovuz rayonunun Seyfəddin kimi onlarla oğlu Azərbaycan Ordusunun zabiti olaraq, respublikamızın müdafiəsinin təmin edilməsində və ərazi bütövlüyünün bərpa olunmasında iştirak edib.

Böyüyüb boya-başa çatdığın və yaşadığın mühit səni formalaşdırır, gələcək həyat yolunu müəyyənləşdirir. Seyfəddinin də həyat yolunu yaşadığı müharibə şəraiti çizmişdi... Həsənzadə Seyfəddin Fəxrəddin oğlu 9 yanvar 1990-cı ildə Tovuz rayonunun Cilovdarlı kəndində anadan olub. Doğma rayonunun düşmənlə sərhəddə yerləşməsi, hər gün müxtəlif silahlardan açılan atəş səsləri, müharibə şəraiti onun da həyatında və gələcək peşə seçimində mühüm rol oynayıb. Hələ ibtidai sinifdə oxuyarkən hərbçi olacağını valideynlərinə, doğmalarına, müəllimlərinə və dostlarına bildirib. Hamı ona seçdiyi peşənin müqəddəs və şərəfli olduğunu deyib, uğurlar arzulayıb.



Orta məktəbdə oxuduğu zaman "Sağlam bədəndə sağlam ruh olar" devizi ilə idmanın sərbəst güləş növü ilə məşğul olub. Respublika yarışlarında kiçik yaşlı uşaqlar arasında bir dəfə, gənclər arasında isə üç dəfə birinci yeri qazanıb.

Zamanı çatanda Seyfəddin sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə təqdim edib. Yüksək nəticələr göstərərək liseyə qəbul olub. O, 2006-2009-cu illərdə burada təhsil alıb. Hərbi təhsilini 2009-2013-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) davam etdirib.

Seyfəddin Həsənzadə 2013-2014-cü illərdə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində (indiki Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi) "Zabit təkmilləşdirmə kursu"nu bitirdikdən sonra Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsində xidmətə başlayır. Müxtəlif vəzifələrdə xidmət edən zabit daha sonra xidmətini yeni yaradılan komando hərbi hissəsində davam etdirir.

Zabit S.Həsənzadə hərbi hissəsinin poliqonunda keçirilən növbəti təlimdə bölmənin şəxsi heyətinin döyüş atışlı taktiki təliminə nəzarət edirdi. O, söhbətində bildirdi ki, şəxsi heyətin təlimlərdə döyüş hazırlığının, peşəkarlığının daha da güclənməsi və artırılması nəzəri biliklərin təcrübədə hansı səviyyədə tətbiqindən asılıdır. "Dünyanın ən güclü orduları sırasında yer alan Azərbaycan Ordusunun şəxsi heyətinin peşəkarlığı daima artırılır. Bunun üçün də keçirilən təlimlərə, dərslərə müasir yanaşmalar var, tələblər ciddidir. Bütün bunların yüksək səviyyədə tətbiqi müasir ordu quruculuğunda əsas şərtdir".

Mayor S.Həsənzadə ordumuzun vətənpərvər və peşəkarlığını daima artırmağa can atan zabitlərdən biridir. O, müxtəlif beynəlxalq hərbi təlimlərdə iştirak edib, kurslar keçib, həmin kursları yüksək nəticələrlə başa vurub.

Vətən müharibəsi zamanı 2020-ci il oktyabrın 17-də Seyfəddin də döyüş əməliyyatlarına cəlb olunub. Bölmələrin tərkibində Füzuli, Xocavənd, Şuşa istiqamətlərində gedən ağır döyüş əməliyyatlarında şücaət və fədakarlıq la döyüşüb. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə mayor Seyfəddin Fəxrəddin oğlu Həsənzadə "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medallarına layiq görülüb.

Zabit şəhid komandiri, dostları, haqqında danışaraq, onların adlarını xatırlatmağı da özünə mənəvi borc bildi. "Onlar torpaqlarımızın azadlığı, xalqımızın haqq işi uğrunda şəhid oldular. Onların xatirələri həmişə yad ediləcək. Məkanları cənnət olsun. Vətənpərvər, peşəkar zabit, komandirim olmuş Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Anar Əliyev, yaxın dostlarım "Azərbaycan Bayrağı" ordenli baş leytenant Məmmədhəsən Sadıqlı, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli kapitan Elvin Əliyev, leytenant Ruslan Bayramov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İsmayıl Yüzbaşıyev, eyni hərbi hissədə xidmət etdiyim, yaxın qohumum leytenant Mais Yaqubov əsl qəhrəmanlıq nümunəsidirlər. Onlar şəhidlikləri ilə milli-mənəvi dəyərlərimizi uca tutdular, torpaq, Vətən heysiyyatımıza əbədilik qazandırdılar".

Zabitlər əsgərlərə xidmətin Vətənə sədaqət borcu olduğunu da xatırladır, vətəndaşlıq borcu olduğunu da. Hərbi xidmətin böyük vətəndaşlıq borcu bilənlərin sırasında mayor Seyfəddin Həsənzadə də var...

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

---

Gənc zabitlərimiz

# Azərbaycan Ordusunun zabiti olmaq fəxrdir

Hər bir insanın həyat yolu onun xarakterini, inancını və seçimlərini əks etdirir. Kimi elmin, kimi sənətin, kimi də hərbi xidmət yolunu seçir. Kapitan Toğrul Fətullayev də hərb yolunu seçənlərdəndir. Ömrü nizam-intizamın, dəqiqliyin və Vətənə xidmətin qaydalarına uyğun formalaşıb. Onun keçdiyi yol təkcə peşənin deyil, həm də iradənin göstəricisidir.

Toğrul Fətullayev 14 fevral 1995-ci ildə Naxçıvan şəhərində dünyaya göz açıb. Uşaqlıq illəri Naxçıvanın özünəməxsus mühitində keçib. 7 nömrəli məktəbdə aldığı təhsil ona bilik qazandırmaqla yanaşı, gələcək planlarını müəyyənləşdirmək imkanı da verib. Erkən yaşlarından hərb sahəsinə maraq göstərməyi 2010-cu ildə onu Heydər Əliyev adına Hərbi Liseyə gətirib.

Hərbi lisey illəri onun xarakterini daha da möhkəmləndirib. Rejim, intizam və fiziki hazırlıqla yanaşı, gələcəyin zabiti olmağın məsuliyyətini də dərk etməyə başlayıb. Hərbi liseyi 2013-cü ildə uğurla başa vurduqdan sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olub. Ali hərbi məktəbdə aldığı nəzəri biliklər keçdiyi planlı təlimlər və onun hərbi bilik bazasını formalaşdırıb. 2017-ci ildə məktəbi bitirdikdən sonra xidmətə başlayıb.



Kapitan Toğrul Fətullayev hərbi əməliyyatlarda iştirak edərək real döyüş təcrübəsi qazanıb. 2020-ci ilin 27 sentyabrında başlayan İkinci Qarabağ müharibəsi onun həyatında ən önəmli mərhələlərdən biri olub. Döyüş tapşırıqlarını yerinə yetirərək həm şəxsi bacarıqlarını, həm də hərbi təcrübəsini artırıb. O, həmçinin 2023-cü ildə keçirilən antiterror əməliyyatında da iştirak edib.

Zabit hərbi xidmətini yalnız fərdi bacarıq kimi deyil, həm də bir ənənənin davamı kimi görür. Onun qardaşı mayor Tural Fətullayev Dövlət Sərhəd Xidmətində xidmət edir və 44 günlük Vətən müharibəsinin iştirakçısıdır.

Toğrul Fətullayev ailəsində şəhidlik anlayışının nə demək olduğunu erkən yaşlarından dərk edib. Dayısı Teymur Alməmmədovun igidliyi, azadlıq uğrunda mübarizəsi Toğrulun dünyagörüşünə, Vətənə bağlılığına təsirsiz ötüşməyib. 20 Yanvar şəhidi olan Teymur Alməmmədovun fədakarlığını bilmək, onun xatirəsini yaşatmaq Toğrul üçün bir borca çevrilib. Bəlkə də elə bu səbəbdəndir ki, o, hərbi xidmət yolunu seçərək, öz həyatını Vətənə həsr edib. O da bildirdi ki, Vətən anlayışı adi bir söz deyil, onu qorumaq, xidmət etmək, fədakarlıq göstərmək deməkdir. Toğrul dayısının şəhid olduğu Vətəni qorumağı özünə mənəvi borc bilib.

Kapitan Toğrul Fətullayevin hərbi xidməti Azərbaycan Ordusunun yüksək ixtisaslı kadr potensialının inkişafına töhfə verən nümunələrdən biridir. O, hərbi sahədə qazandığı bilik və təcrübəni gündəlik xidmətdə tətbiq edərək, daim inkişafına önəm verən zabitlərdəndir. Onun keçdiyi yol hərbçiliyin sadəcə bir peşə olmadığını, eyni zamanda, bir həyat tərzi olduğunu göstərir. Azərbaycanın təhlükəsizliyinin və suverenliyinin qorunmasında xidmətdə olan hər bir zabit kimi, Toğrul Fətullayev də bu missiyanı məsuliyyətlə yerinə yetirir.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

---

Nümunəvi xidməti

# Peşəyə sevgi ürəkdən gəlməlidi

Orduda bütün ixtisaslar kimi, sürücülük də gərəklidir. Sürücü olmaq istəyən hər kəsin, ilk növbədə, avtomobil haqqında müfəssəl bilikləri olmalıdır. Belə olduğu halda, sürücü avtomobili rahat və təhlükəsiz idarə etməklə yanaşı, texnikanın daim işlək vəziyyətdə olmasını və ona mütəmadi texniki qulluq göstərilməsini təmin edə bilər.

Hərbi hissənin avtomobil parkında mayor Ülvi Zərbəliyevlə görüşdük. Bacarıqlı, öz işinin öhdəsindən layiqincə gələn sürücülərdən söz düşəndə zabit Ü.Zərbəliyev qeyd etdi ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Ramil Əliyev həm intizamına, həm də bilik və bacarıqlarına görə həmişə fərqlənib.

Əsgərlər üstüörtülü saxlanclarda olan texnikalara qulluq göstərirdilər. Onlar təhkim edilən avtomobillərin səfər öncəsi əyləc və elektrik sisteminin sazlığını nəzərdən keçirirdilər. Hər bir texnika idarə olunmazdan əvvəl park növbətçisi və texniki nəzarət məntəqə rəisi tərəfindən yoxlanılır. Avtomobilin tam yararlı olmasına əmin olunduqdan sonra çıxışa icazə verirlər. Sürücü Ramil Əliyevin idarə etdiyi avtomobil hər an çıxışa hazır vəziyyətdə olur. Çünki o, texnikanın sazlığını həmişə diqqətlə nəzərdən keçirir. Avtomobildə yaranan hər hansı bir nasazlığı dərhal aradan qaldırır. Özünün təmirə gücü çatmadığı halda parkdakı təmir briqadasına müraciət edir və onların köməyilə maşın çıxışa hazır vəziyyətə gətirilir.

Çavuş Ramil Əliyevlə xidmət yerində görüşdük. Məlum oldu ki, o, hələ yeniyetmə yaşlarında avtomobilə böyük maraq göstərməkdən çox onun təmirinə can atıb. Hərbi hissədə sürücüyə ehtiyac yarandığını eşidəndə isə tərəddüd etmədən özünü bura yetirib.



- Hərbi hissədə sürücü kimi xidmət etmək mənim üçün ikiqat sevincdir. Burada sürücü olmağımla gənc sürücü yoldaşlarıma da bu peşənin incəliklərini öyrədirəm. Elektrik, mühərrik və digər təmir işlərini yüksək səviyyədə bilməsəm də, yetərincə anlayışım var və ortaya çıxan bəzi nasazlıqları özüm aradan qaldırmağa çalışıram, - R.Əliyev dedi.

Çavuş Ramil Əliyev İkinci Qarabağ müharibəsi iştirakçısıdır. O, həm 44 günlük Vətən müharibəsində, həm də 2023-cü ilin 19-20 sentyabrında keçirilən antiterror əməliyyatında idarə etdiyi avtomobillə qarşıya qoyulan tapşırıqları yerinə yetirib.

Sürücü Ramil Əliyev yenə çıxışa hazırlaşır. Onun avtomobili həmişə olduğu kimi təmiz və çıxışa hazırdır. Bu səbəbdən də onun avtomobilinə baxış çox çəkmir və sürücü göstərilən məntəqəyə çatmaq üçün parkı tərk edir...

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

## Görkəmli şəxsiyyətlər

# Qafqazda hərbi topoqrafiya üzrə general-mayor rütbəsinə layiq görülmüş yeganə şəxsiyyət - İbrahim ağa Vəkilov

***İbrahim ağa Paşa ağa oğlu Vəkilov 1853-cü il mayın 7-də keçmiş Yelizavetpol quberniyası Qazax qəzasının Qıraq Salahlı kəndində anadan olub. İbrahim ağa Vəkilov 1866-cı ilin sentyabrında Tiflisdəki üçüncü Mejavoy Hərbi gimnaziyasına daxil olur. Burada doqquz il oxuduqdan sonra həmyerlisi Mirzə Hüseyn əfəndi Qayıbzadənin məsləhətilə Peterburqdakı hərbi topoqrafiya məktəbinə daxil olur. 1879-cu ildə İbrahim ağa Vəkilov həmin məktəbi müvəffəqiyyətlə bitirib, "praporşik" hərbi rütbəsi alır. Xidmət üçün Tiflisə göndərilən gənc hərbçi bir müddət Qafqaz hərbi dairəsinin topoqrafiya qərargahı şöbəsində xidmət edir.***



Xidmətinin ilk illərində Dağıstanda topoqrafik çəkilişlərlə məşğul olan İbrahim ağa Vəkilov 1883-cü ildə Rus-İran komissiyasının tərkibində Xəzər dənizindən Əfqanıstana qədər olan sərhədlərin dəqiqləşdirilməsində iştirak edir. Belə bir ciddi işi vaxtından əvvəl - iki ilə müvəffəqiyyətlə yerinə yetirdiyinə görə İbrahim ağa Vəkilovun xidməti İran hökumətinin ən yüksək ordeni olan "Şire-Xurşid" ordeninə layiq görülür. Beş il Qafqaz hərbi dairəsinin topoqrafiya şöbəsinə rəhbərlik edən İbrahim ağa Qafqazın və Krımın müxtəlif rayonlarında topoqrafik çəkilişlərlə məşğul olur. 1891-ci ildə Türkiyəyə ezam olunan İbrahim dörd il rus səfirliyində yaşayaraq xüsusi tapşırığı yerinə yetirir. "Mayor" rütbəsində yenidən Qafqaz hərbi dairəsində xidmətini davam etdirir. 1901-ci ildən şöbə rəisi podpolkovnik İbrahim ağa Vəkilov Qars vilayətinin Rus-Türk sərhədlərində topoqrafik çəkilişə rəhbərlik edir və Bosforun hərbi xəritəsini hazırlayır.

1912-1913-cü illərdə Rus-İran hökumətinin danışıqlarına əsasən, polkovnik İ.Vəkilov Cənubi Azərbaycanın Təbriz, Urmiya və Xoy şəhərlərində keçirilən topoqrafik çəkilişlərə də başçılıq edir. Birinci Dünya müharibəsi illərində döyüşən ordu qərargahında fəaliyyət göstərən polkovnik 1917-ci il inqilabından sonra Tiflisə qayıdır.

Bir müddət Tiflisdə Zaqafqaziya Federasiyasında və Zaqafqaziya Xeyriyyə Cəmiyyətinin sədri vəzifəsində çalışan İbrahim ağa sonralar Bakıda və Gəncədə fəaliyyət göstərir.

1918-ci ildə o, Azərbaycan Milli Ordusunun təşkilində fəal çalışanlardan olub. Bundan əvvəl Azərbaycan hökuməti onu Qazax qəzasina kənd və şəhər şuralarının seçkilərinə rəhbərlik etməyə göndərir. Vəkilovun nüfuzu yeni yaranan Azərbaycan Demokratik Cümhuriyyətinin bölgədə dərinləşməsinə güclü təkan verir.

1918-ci il iyunun 23-də Respublika Daxili işlər nazirinin əmri ilə polkovnik İbrahim ağa Vəkilov Gəncənin general-qubernatoru təyin olunur. Goran mahalında və ayrı-ayrı kəndlərdə sığınacaq tapan daşnak tör-töküntülərinə qarşı mübarizə aparan qubernator onları tərk-silah edir.

Azərbaycan hökumətinin 1919-cu il 30 mart tarixli qərarı ilə uzun illər ordudakı nümunəvi xidmətinə görə İbrahim ağa Paşa ağa oğlu Vəkilova general-mayor rütbəsi verilir. İbrahim ağa Vəkilov Qafqazda hərbi topoqrafiya üzrə general-mayor rütbəsinə layiq görülmüş yeganə şəxsiyyətdir.

6 may 1919-cu ildə general-mayor İbrahim ağa Vəkilov hökumətin əmri ilə Baş Qərargahda hərbi topoqrafiya şöbəsinin rəisi təyin olunur. O, Azərbaycan Demokratik Cümhuriyyətinin süqutuna qədər bu vəzifədə xidmət edir.

1919-cu ilin dekabrında ilk hərbi bayrağımızın təsdiq olunması haqqında Baş Qərargah İdarəsi qərar verir. Bayrağın yaradıcısı hərbi topoqrafiya şöbəsinin rəisi general-mayor İbrahim ağa Vəkilov idi. İpək sapla işlənmiş bayrağın bir üzündə əski əlifba ilə "Azərbaycan", o biri üzündə isə müqəddəs "Qurani-Kərim" kitabından "Allahdan kömək və qələbə yaxındadır" ayəsi yazılır. Baş Qərargah İdarəsinin verdiyi qərarda göstərilir ki, süvari və piyada alaylarında, əlahiddə tabor və hərbi məktəblər üçün vahid formada bayrağın yaradıldığı elan olunur.

1920-ci ildə Azərbaycanın ilk coğrafi xəritəsinin müəllifi və respublikamızda topoqrafiya məktəbinin yaradıcısı general-mayor İbrahim ağa Vəkilov olmuşdur.

Qırx ilə yaxın hərbi topoqraf kimi fəaliyyət göstərən İbrahim ağa Vəkilovun xidmətləri "Müqəddəs Anna" ordeninin üçüncü dərəcəsi ilə (1886), "Müqəddəs Stanislav" ordeninin ikinci dərəcəsi ilə (1894), "Müqəddəs Anna" ordeninin ikinci dərəcəsi ilə (1897), "Müqəddəs Vladimir" ordeninin dördüncü dərəcəsi ilə (1903) qiymətləndirilib.

İbrahim ağa Vəkilov Sovet hakimiyyəti qurulduqdan sonra müəllimlik fəaliyyəti ilə məşğul olur. Daha sonralar isə Respublika Xalq Torpaq Komissarlığı Topoqrafiya-Geodeziya İdarəsinin rəisi vəzifəsində, Azərbaycanın Qədim Dövr İncəsənət Abidələrini və Təbiəti Mühafizə Komitəsində çalışır.

İbrahim ağa Vəkilov 1934-cü il iyunun 2-də vəfat edib.

**"Azərbaycan Ordusu"**

# ƏÜO-da "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"nun buraxılış mərasimi keçirilib



Əlahiddə Ümumqoşun Orduda (ƏÜO) növbəti "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"nun uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, mərasimdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Məzunlara Müdafiə Nazirliyi rəhbərliyinin təbrikləri çatdırılıb. Tədbirdə çıxış edənlər kursu müvəffəqiyyətlə bitirənlərə Vətənə və Hərbi Anda sadiq olmağı, hərbçi şərəfini hər zaman uca tutmağı tövsiyə edib, gələcək xidmətlərində uğurlar diləyiblər.

Məzunlar kurs müddətində qazandıqları bilikləri və praktiki vərdişləri xidmətdə tətbiq edəcəklərinə, qarşıya qoyulan tapşırıqları vicdanla yerinə yetirəcəklərinə və Vətən torpaqlarını layiqincə qoruyacaqlarına söz veriblər.

Hərbi qulluqçulara sertifikatlar təqdim olunduqdan sonra kurs birincisi tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub.

Sonda hərbi orkestrin müşayiəti ilə şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.

## Hərb tariximizdən

# Azərbaycanın hərb tarixi: əsrlərin sədası

Azərbaycan tarixi zəngin hərbi ənənələri ilə tanınır. Coğrafi mövqeyi, Şərqlə Qərb arasında strateji keçid nöqtəsində yerləşməsi ölkəmizi əsrlər boyu müxtəlif müharibələrin və tarixi proseslərin mərkəzinə çevirib. Azərbaycan xalqının hərb tarixi müstəqillik uğrunda mübarizə, dövlətçilik prinsiplərini qorumaq və işğallara qarşı göstərilən qətiyyətli müqavimət nümunələri ilə zəngindir.

Tariximizdə hərbi ənənələrin başlanğıcı Eneolit dövrünə təsadüf edir. Qobustan qayaüstü təsvirlərində ibtidai dövr insanlarının ovçuluq və döyüş səhnələri əks olunmuşdur. Şumer, Akkad və Elam mədəniyyətləri ilə sıx əlaqələr Azərbaycan ərazisində inkişaf etmiş hərbi bacarıqların və müasir dövrün ilk ordu strukturlarının formalaşmasının başlanğıc nöqtəsidir.

Midiya imperiyası (e.ə. VII əsr) Azərbaycan ərazisinin hərbi-siyasi həyatında mühüm rol oynamışdır. Midiya ordusu dövrün ən güclü hərbi qüvvələrindən biri olub, Assuriyaya qarşı zəfərlə nəticələnən müharibələr aparan öz Azərbaycan torpaqlarında ilk dövlətçilik ənənələrini qurmuşdu.

Azərbaycan ərazisində ən qədim dövlətlərdən biri olan Qafqaz Albaniyası (e.ə. IV əsr-b.e. VIII əsr) regionda mühüm hərbi-siyasi rol oynayıb. Albaniya ordusu dövrün böyük imperiyaları olan Roma və Sasanilərə qarşı müxtəlif döyüşlər aparıb. Həmin dövrdə istifadə olunan döyüş arabaları, atlı süvari orduları və daş sikkələrdə əks olunan silah növləri hərbi qüdrətin simvolu idi.

VII əsrin ortalarında Azərbaycan ərazisi Ərəb xilafətinin tərkibinə daxil edildi. Bu dövrdə yerli xalqlar İslam dinini qəbul etməklə yanaşı, ərəb ordularında xidmət etməyə başladılar. Ərəb fəthləri dövründə Azərbaycandan olan döyüşçülər də hərbi yürüşlərdə iştirak etdilər.

Sonrakı əsrlərdə yerli Azərbaycan dövlətləri, xüsusilə Şirvanşahlar, Eldənizlər və Səfəvilər güclü hərbi qüdrətləri ilə fərqlənirdi. Şirvanşah ordusu dövrün ən yaxşı təlim keçmiş süvari dəstələrindən biri sayılırdı.

XI əsrdə Səlcuqlu İmperiyası Azərbaycan torpaqlarını nəzarət altına aldı. Bu dövrdə Azərbaycan ordusunda hərbi təşkilatlanma yüksək səviyyəyə çatmışdı. Səlcuqluların qüdrətli süvari dəstələri tarixin ən güclü orduları sırasında yer alırdı.

XVI əsrdə Səfəvi imperiyasının qurulması ilə Azərbaycan hərbi qüdrətinin yeni dövrü başlandı. Səfəvilər dövründə nizami ordu və döyüş texnologiyaları inkişaf etdirildi, hərbi strategiya əsas dövlət siyasətinə çevrildi.

XVIII əsrin sonları, XIX əsrin əvvəllərində Azərbaycan xanlıqları arasında Qarabağ xanlığı xüsusi hərbi gücü ilə seçilirdi. İbrahimxəlil xanın dövründə Qarabağ xanlığı həm daxili, həm də xarici düşmənlərə qarşı uğurlu döyüşlər apardı. Lakin XIX əsrdə Azərbaycanın Çar Rusiyasına birləşdirilməsi hərb tarixində mühüm dəyişikliklərə səbəb oldu.

1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövlətin müasir ordu quruculuğunun əsasını qoydu. AXC-nin 1918-ci il iyunun 26-da yaratdığı ordu müasir Azərbaycan Ordusunun təməllərini təşkil etdi. AXC-nin süqutundan sonra Azərbaycan Sovet İttifaqının tərkibinə daxil edildi və milli hərbi siyasət məhdudlaşdırıldı.

1991-ci ildə müstəqillik əldə edildikdən sonra Azərbaycan Respublikasının Silahlı Qüvvələri yenidən quruldu. Doğma Qarabağımızın Ermənistan silahlı birləşmələrinin işğalından azad edilməsi Azərbaycanın hərb tarixində mühüm bir dövr kimi yadda qaldı.

İkinci Qarabağ müharibəsi müstəqil Azərbaycanın hərb tarixində qürurverici bir səhifədir. Azərbaycan Ordusu müasir texnologiyalar, intizam və strategiya sayəsində torpaqlarımızı işğaldan azad etdi. Bu zəfər Azərbaycan Ordusunun dünya miqyasında nüfuzunu artırdı.

2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağ iqtisadi rayonunda həyata keçirilən antiterror əməliyyatı nəticəsində Azərbaycan Ordusu ölkəmizin ərazi bütövlüyü və suverenliyini tam bərpa etdi. Azad olunmuş torpaqlarımızda bu gün şanlı Azərbaycan bayrağı əzəmətlə dalğalanır.

Azərbaycanın hərb tarixi yalnız döyüşlər və müharibələrlə deyil, həm də xalqımızın vətənpərvərlik ruhu və müstəqillik uğrunda mübarizəsi ilə zəngindir. Bu tarix əsrlərin sədası olaraq bu gün də yeni nəsillərə ilham verir və dövlətimizin inkişafında mühüm rol oynayır.

**Baş leytenant**
**Elvin VƏTƏNDUST**
**"Azərbaycan Ordusu"**

## Vətənpərvər ruhlu gəncliyin yetişdirilməsində təhsil müəssisələri və QHT-lərin də üzərinə böyük məsuliyyət düşür

*Bakı Slavyan Universitetinin konfrans zalında "2 Fevral - Gənclər Günü"nə həsr olunmuş "Nəsillərin görüşü" silsiləsindən "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda dəyirmi masa keçirilib.*



AZƏRTAC xəbər verir ki, Respublika Veteranlar Təşkilatı və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə gənclər, veteranlar və qonaqlar iştirak ediblər.

Tədbirdə Dövlət Himni səslənib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev çıxış edərək, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, onların inkişafı mövzusunda müzakirələrin aparılmasında ali təhsil müəssisələrinin rolundan söz açıb.

Rektorun məsləhətçisi Ənvər Abbasov dövlətimizin gənclər siyasətindən bəhs edib.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, polkovnik Cəlil Xəlilov "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda məruzə ilə çıxış edib. Bildirib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun sözlərinə görə, vətənpərvər ruhlu gəncliyin yetişdirilməsində ailə ilə yanaşı, təhsil müəssisələri və QHT-lərin də üzərinə böyük məsuliyyət düşür.

Daha sonra çıxış edənlər ölkəmizin inkişafı və dövlətimizin təhlükəsizliyinin təmin olunmasında gənclərin üzərinə düşən məsuliyyətdən bəhs edib, Prezident İlham Əliyevin gənclərə göstərdiyi diqqət və qayğıya diqqət çəkiblər.

Əməkdar jurnalist, Yazıçılar Birliyinin üzvü Varis Yolçuyev "Müasir gənclərin hədəfləri, məqsəd və vəzifələri", AMEA Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri Asif Rüstəmli "Heydər Əliyev - tərbiyənin mənəvi aspektləri" mövzularında çıxış ediblər.

Vətən müharibəsinin iştirakçıları, müharibə veteranları Bəhruz İsmayılov və Emin Şirinov isə çıxışlarında Azərbaycan gəncliyinin 44 günlük savaşda göstərdiyi qəhrəmanlıqlara toxunub, gənclərin bu günə qədər olduğu kimi, bundan sonra da milli maraqlarımızın, dövlətimizin təhlükəsizliyinin keşiyində ayıq-sayıq dayanacağını vurğulayıblar.

Sonda bir qrup gənc Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən Fəxri fərmanla təltif edilib.

## Əsgərlərimizi təbrik edirəm

Azərbaycanda gənclər siyasəti uğurla davam etdirilir ki, bu da istər gənclərin, istərsə də yeniyetmələrin vətənpərvərlik tərbiyəsinin daha da möhkəmləndirilməsində müstəsna rol oynayır.

Mən hərbi xidmətdəyəm, əsgərəm. Qürurlanıram ki, belə bir ordunun əsgəriyəm. Bu ordu Azərbaycanın ərazi bütövlüyünü tam bərpa edən ordudur, bu ordu işğalı sonlandıran ordudur.

Biz - Azərbaycan Ordusunun əsgərləri qalib əsgərlərin layiqli davamçıları kimi nümunəvi xidmət edir, zabitlərimizin bütün əmr və göstərişlərini sözsüz və məsuliyyətlə yerinə yetiririk.

2 Fevral Azərbaycanda Gənclər Günüdür. Mən öz adımdan, xidmət yoldaşlarımın adından Azərbaycan Ordusunun əsgərlərini Gənclər Günü münasibətilə təbrik edir, hər birinə xidməti uğurlar arzulayıram. Əminəm ki, onlar bundan sonra da Ali Baş Komandanımızın bütün əmr və göstərişlərini böyük sədaqətlə yerinə yetirəcəklər.

**Əsgər**
**Vaqif MUSTAFAYEV**
**"N" hərbi hissəsi**

## Hərbi vəzifəlilərlə keçirilən təlim toplanışı başa çatıb







*Cari ilin hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlilərlə keçirilən təlim toplanışı başa çatıb.*

Müdafiə Nazirliyi xəbər verir ki, toplanışın başa çatması münasibətilə bağlanış mərasimi keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimdə çıxış edənlər bildiriblər ki, hərbi vəzifəlilərin döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə sıra, taktiki, hərbi tibb, ixtisas və digər hazırlıqlar üzrə nəzəri və praktiki məşğələlər keçirilib. Toplanışın planına uyğun olaraq onlara ordumuzun arsenalında olan müasir silah və texnikanın taktiki-texniki xüsusiyyətləri, həmçinin düzgün istifadə qaydaları və döyüş tətbiqi üsulları öyrədilib.

Bununla yanaşı, ehtiyatdan çağırılanların mənəvi-psixoloji vəziyyəti yoxlanılıb, onlarla milli-mənəvi dəyərlərə sadiqlik, dövlətçilik və vətənpərvərlik ruhunda maarifləndirici söhbətlər aparılıb.

Qeyd olunub ki, təlim toplanışında qarşıya qoyulmuş məqsədlərə nail olunub.

Sonda təlim toplanışında fərqlənən bir qrup hərbi vəzifəliyə fəxri fərmanlar təqdim edilib.

## Hərbi qulluqçularımız "Qış təlimi-2025"də yüksək peşəkarlıq nümayiş etdirirlər





**(Əvvəli 1-ci səhifədə)**

Müdafiə Nazirliyi xəbər verir ki, təlimin ssenarisinə uyğun olaraq, artilleriya qurğuları, zirehli texnika, döyüş təyyarələri və helikopterlərdən qeyri-qanuni silahlı birləşmələrin sığınacaqları, texnikası və canlı qüvvəsinin məhv edilməsi üzrə tapşırıqlar yerinə yetirilib.

Həmçinin çətin hava şəraitində təyyarələrdən endirilən taktiki hava desantı qrupları dağlıq ərazidə döyüş tətbiqi üzrə tapşırıqları icra ediblər.

Çoxmillətli "Qış təlimi-2025"də bölmələrimiz ölkəmizi layiqincə təmsil edirlər.

Maraq dünyamız

# "Mişon" məbəd kompleksi

<u>*Vyetnamın Kuanq Nam əyaləti tarixi "Mişon" məbəd kompleksi sayəsində bütün dünyada məşhurdur. Bura, qədim Çampa dövlətinin keçmiş dini mərkəzidir. Məbəd dünya əhəmiyyətli mədəni irs abidəsi kimi tanınır və hər il, ötən əsrlərin sirləri ilə maraqlanan minlərlə səyahətçini özünə cəlb edir.*</u>





Kompleks haqqında ilk məlumat XVII-XVIII əsrlərə aiddir. Rəvayətə görə, təxminən 1,5 min il əvvəl mövcud olan Çampa İmperiyasının paytaxtı bir vaxtlar burada yerləşib. Alimlər hesab edirlər ki, Mişon məbəd kompleksinin banisi - Şiva tanrısının əzəməti şərəfinə, həm də onun hakimiyyətinin xatirəsi olaraq şəhərin yaxınlığında "Müqəddəs Vadi" yaratmağa qərar verən Kral I Bhadravarmanu olub. Uzun müddət heç kim Mişon xarabalıqları haqqında heç nə bilməyib, yalnız XX əsrdə Dananq yaxınlığında qazıntı aparan fransız arxeoloqları onu tapmağa müvəffəq olublar.

Vyetnam-Amerika müharibəsi zamanı kompleks praktiki olaraq yerlə-yeksan edilib, binaların əksəriyyətinə ciddi ziyan dəyib və indi onlar otla örtülmüş daş yığınına çevrilib. 1975-ci ildə qədim abidənin bərpasına qərar verilib. Bunun üçün bir neçə il ərzində ətraf torpaqların sakinləri müharibədən dağılmış cəngəlliyi öz əlləri ilə mina və bombalardan təmizləyiblər. Kompleksin bərpası təxminən 15 il çəkib və 1996-cı ildə Mişon məbəd kompleksinin təntənəli açılışı olub. 3 il sonra YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Qədim çampalar həqiqətən də böyük xalq idi. İnanılmaz səyləri nəticəsində monumental binalar ucaltdı və onların düzülüşündə keçmiş sivilizasiyanın mədəniyyətini, inanclarını əks etdirməyi bacardılar. Bir vaxtlar kompleks ərazisində 70-ə yaxın ziyarətgah və məbəd mövcud idisə, hazırda burada yalnız bir neçə, 20-ə yaxın, bişmiş kərpicdən tikilmiş bina qorunub qalıb.

Məbəd, qüllələr qədim sənətkarlar tərəfindən oyulmuş unikal naxış və dizaynla bəzədilib. Hər bir elementin əl ilə yaradılması sadəcə heyrətamizdir!

Bir vaxtlar paytaxt Çampa sakinlərinin keçdiyi dar keçidlər və cığırlar indi bələdçili turlar üçün istifadə olunur. Onlarla gedərkən hindu tanrılarının bir neçə heykəllərini görmək mümkündür. Kompleksin dumanla örtülmüş təpələr və sıx cəngəlliklər arasında yerləşməsi onun sirrini daha da artırır.

Kompleksin yaxınlığında Çampa imperiyasının tarixindən bəhs edən muzey və mədəniyyət mərkəzi var. Mərkəzdə tematik folklor tədbirləri keçirilir.

**"Azərbaycan Ordusu"**

## Xəbərlər: hadisələr, faktlar

### Ankarada 40 ədəd "Eurofighter Typhoon" qırıcısının tədarük üzrə qiymət təkliflərini gözləyirlər

Türkiyə dördüncü nəsil 40 ədəd "Eurofighter Typhoon" döyüş təyyarəsinin tədarükü üçün avropalı istehsalçılardan qiymət təklifi gözləyir.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Nazirlik qeyd edib ki, müvafiq sənədlər artıq Böyük Britaniya Müdafiə Nazirliyinə və "Eurofighter" konsorsiumuna təqdim edilib və Ankara yaxın günlərdə qiymət təklifi alacağını gözləyir.

Milli Müdafiə Nazirliyi, həmçinin Türkiyə Hərbi Hava Qüvvələrinin ehtiyacları üçün F-16 təyyarələrinin tədarükü və təkmilləşdirilməsi məsələsində müzakirələrin texniki mərhələsində müsbət irəliləyiş olduğunu bildirib.

Eyni zamanda, Ankara beşinci nəsil KAAN təyyarəsi, "Hürjet" reaktiv təlimçi və yüngül döyüş təyyarəsi, "Kızılelma" pilotsuz hərbi təyyarəsi və ANKA-3 hücum PUA layihələri də daxil olmaqla, ölkə üçün daxili müdafiə inkişaflarının prioritetliyini vurğulayır.



Bölgədəki vəziyyətlə bağlı Milli Müdafiə Nazirliyi Türkiyə hərbi heyətinin Suriyaya səfərinə diqqət çəkib.

"Səfər yanvarın 29-da baş tutub və məqsəd müdafiə sektorunda əməkdaşlıq üçün Yol Xəritəsinin formalaşdırılması olub. Digər məsələlərlə yanaşı, terrorizmlə mübarizədə birgə addımlar müzakirə edilib", - deyə nazirlikdən bildirilib.

Milli Müdafiə Nazirliyi bildirir ki, Türkiyə hərbçiləri təkcə son bir həftədə bölgədə 57, ilin əvvəlindən isə ümumilikdə 278 terrorçunu zərərsizləşdirib, daha 3 yaraqlı isə silahları ataraq Türk Silahlı Qüvvələrinə təslim olub.

### İtaliya Ukraynaya hərbi yardımı ilin sonunadək davam etdirəcək



İtaliya hökuməti Ukraynaya hərbi yardımı cari il dekabrın 31-dək davam etdirəcək.

Ukraynaya silah yardımının davam etdirilməsini nəzərdə tutan fərman İtaliya parlamentinin yuxarı palatası olan Senatda təsdiq olunub.

İtaliya hərbi yardım paketi çərçivəsində Ukraynaya yeni silahlar tədarük edəcək. Silahın və hərbi texnikanın siyahısı məxfi saxlanılsa da, yerli media bu texnikaların müxtəlif raketlər, döyüş sursatları, zenit-raket komplekslərindən ibarət olacağını yazıb.

### İordaniya Qəzzaya daha 16 yardım helikopteri göndərib

İordaniya Qəzzaya daha 16 yardım helikopteri göndərib.

Helikopterlər İordaniya Haşimi Xeyriyyə Təşkilatı və bir sıra digər ölkələrin birgə göndərdiyi 20 ton humanitar yardımı daşıyıb. Humanitar yardımın çatdırılması səkkiz gün davam edəcək.



### Britaniya donanmasını modernləşdirmək üçün 355 milyon dollarlıq müqavilə imzalayıb



Böyük Britaniya hökuməti müdafiə şirkəti "BAE Systems" ilə Kral Hərbi Dəniz Qüvvələrinin döyüş sistemlərinin modernləşdirilməsi üçün 355,57 milyon dollarlıq müqavilə imzalayıb.

Bu, döyüş gəmilərinin sistemlərini gücləndirəcək və onların təhdidləri izləmək, təhlil etmək və cavab vermək qabiliyyətini artıracaq. Ötən həftə Böyük Britaniya Müdafiə Nazirliyi sualtı qayıqlar üçün nüvə reaktorlarının hazırlanması və istehsalı üçün "Rolls Royce" ilə 8 il müddətinə 11 milyard dollarlıq müqavilə imzaladığını açıqlayıb.

Departamentin rəhbəri Con Healy vurğulayıb ki, şirkətlə əməkdaşlıq Kral Donanmasını və milli təhlükəsizliyi gücləndirməyə kömək edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

## İdman

### Tofiq Bəhramovun xatirəsi yad edilib



Yanvarın 29-da dünya şöhrətli azərbaycanlı futbol hakimi Tofiq Bəhramovun anadan olmasının 100 illik yubileyi qeyd olunub. Bu münasibətlə AFFA rəhbərliyi və futbol ictimaiyyətinin nümayəndələri onun məzarını ziyarət ediblər.

Əfsanəvi referinin məzarı üstünə gül çələngi qoyulub.

### Bakıda ilk dəfə keçiriləcək basketbol üzrə Dünya Kubokunun seçmə mərhələsinin iştirakçıları müəyyənləşib



Azərbaycanda ilk dəfə keçiriləcək basketbolun 3x3 növü üzrə Dünya Kubokunun seçmə mərhələsində iştirak edəcək milli komandalar müəyyənləşib.

Seçmə mərhələdə Azərbaycanın kişi və qadın yığmaları ilə yanaşı, Monteneqro, Kanada, Böyük Britaniya, Ruanda, İran (kişilər), Çili, Latviya, Çin, Taypeyi, Braziliya və Misir (qadınlar) kollektivləri mübarizə aparacaqlar.

Qeyd edək ki, kişi və qadın kateqoriyalarında ən yaxşı 3 yığma Dünya Kubokunun əsas mərhələsində iştirak etmək hüququ qazanacaq. Oyunlar mayın 24-25-də gerçəkləşəcək.

### Azərbaycan karateçiləri ötən il beynəlxalq yarışlarda 82 medal qazanıblar



Azərbaycan karateçilərinin 2024-cü ildə qazandığı medalların sayı açıqlanıb.

Bu barədə Azərbaycan Karate Federasiyasının bu gün keçirilən ümumi yığıncağında məlumat verilib.

Bildirilib ki, karateçilərimiz ötən il iştirak etdikləri 17 beynəlxalq turnirdə ümumilikdə 82 mükafat əldə ediblər. Medalların 21-i qızıl, 23-ü gümüş, 38-i isə bürünc olub.

### Azərbaycan qılıncoynadanı Estoniyada fəxri kürsüyə qalxıb




Qılıncoynatmanın şpaqa növü üzrə Azərbaycan millisinin üzvü Vahab Fətullayev Estoniyanın Tartu şəhərində keçirilən "Baltic Cup" turnirində bürünc medal qazanıb.

20 yaşadək kişi şpaqaçıların şəxsi yarışında mübarizəyə 1/16 finaldan başlayan idmançı bu mərhələdə latviyalı həmkarı Aleksejs Malinovskisi 15-12 hesabı ilə məğlub edib. Vahabın 1/8 finalda da rəqibi Latviya şpaqaçısı olub. O, bu dəfə Nikita Aniskoya 15-6 hesabı ilə qalib gəlib. Təmsilçimiz yarımfinala yüksəlmək uğrunda keçirilən qarşılaşmada eston Nikita Doronini 15-14 hesabı ilə üstələyib. Bürünc medalı təmin edən Vahab Fətullayev finalın bir addımlığında Estoniya şpaqaçısı Marek Puhma 13-14 hesabı ilə uduzub.

**AZƏRTAC-ın materialları əsasında**

Hüseynov İlham Sahib oğluna verilmiş MV № 131012 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əsgərov Məhəmməd Ələkbər oğluna verilmiş MV № 014261 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Rəşid HÜSEYNOV

Lisenziya № 361
Sifariş № 18
Nüsxə 3663